Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş «Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydası»nın və bununla əlaqədar Təhsil Nazirliyinin 4 oktyabr 2010-cu il tarixli 1297 nömrəli əmrinin icrasını təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. **Ümumi təhsil müəssisələrinin müəllimləri üçün ixtisasartırma təhsilinin Kurikulum Çərçivəsi** təsdiq edilsin (əlavə olunur).

2. Əlavə təhsilin ixtisasartırma təhsili istiqaməti üzrə təhsil proqramlarının qiymətləndirilməsi və tətbiqinə icazənin verilməsi Təhsil Nazirliyinin Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsinə həvalə edilsin.

3. Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsi (F.Qədirov):

3.1. İxtisasartırma təhsili üzrə təhsil proqramlarının qiymətləndirilməsi və

tətbiqinə icazənin verilməsi mexanizmini hazırlayıb təsdiq edilmək üçün təqdim etsin.

3.2. Kurikulum çərçivəsinin ayrı-ayrı modulları üzrə əlavə təhsil müəssisələri və ya ixtisasartırma təhsilini həyata keçirən qurumlar tərəfindən hazırlanan təhsil proqramlarının qəbuluna dair elan verilməsini təmin etsin.

3.3. Rəhbər və pedaqoji kadrların digər kateqoriyaları üçün ixtisasartırma təhsilinin minimum həddinin müəyyən edilməsini və müvafiq kurikulum çərçivələrinin hazırlanıb təqdim edilməsini təmin etsin.

4. Rayon (şəhər) təhsil şöbələri (idarələri), Nazirliyin birbaşa tabeliyində

olan ümumi təhsil müəssisələri:

4.1. Ümumi təhsil müəssisələrində işləyən müəllimlərin ixtisasartırmaya olan ehtiyac və tələbatlarının öyrənilməsini, bu əsasda ixtisasartırma proqramlarının düzgün seçilməsini və hər bir müəllimin 5 il ərzində ixtisasartırma təhsilinin üç modulu üzrə 120 saatlıq təlim kurslarından keçməsini təmin etsinlər.

4.2. Fərdi ehtiyac və maraqların nəzərə alınması yolu ilə ixtisasartırma proqramlarının seçilməsində müəllimlərə müvafiq köməklik göstərsinlər.

4.3. İxtisasartırma proqramlarının fərdi seçimi əsasında müvafiq əlavə təhsil müəssisələri və ya ixtisasartırma təhsilini həyata keçirən qurumlarla müqavilələrin bağlanılmasını, mümkün olan hallarda ixtisasartırma təlimlərinin müəllimlərin iş yerində və ya ona yaxın ərazidə həyata keçirilməsini təmin etsinlər.

4.4. «Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydası»nın 1.7-ci bəndinə müvafiq olaraq stimullaşdırma tədbirlərinin həyata keçirilməsində müəllimlərin ixtisasartırma təhsili nəticəsində topladıqları kreditlərin nəzərə alınmasını təmin etsinlər.

5. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin əlavəsi ilə birlikdə

"Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını təmin etsin.

6. İnzibati işlər üzrə sektor (A.Nəbiyev) əmrin əlavəsi ilə birlikdə çoxaldılıb

yerlərə göndərilməsini təmin etsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***Misir Mərdanov,***

***Azərbaycan Respublikasının təhsil naziri.***
***17 dekabr 2010-cu il.***

***№1668***